**❑ Bir yazı üçün neçə sərlövhə fikirləşmək olarmış? “Müstəqillik günündə 28 May küçəsinə qayıdış”, “Yeniləndi köhnə ünvan... ”, “Payızda təkcə cücəni saymırlar...”, “38 kiloqram gül yağı on tonlarla gül ləçəyi deməkdir”, “Boz Qafqaz” “Karpat”dan məhsuldardır” və sair. Sonra isə bu qəbildən olan müxtəlif başlıqlar altında qələmə almaq istədiyim sətirlərin əvvəlində sərlövhə məsələsini unudaraq, açıq-açığına bir təəssübkeşlik etməyi üstün tutdum. Peşə təəssübkeşliyi.**



# Zaqatala:

# Daxili imkanlardan səmərəli istifadə uğurları daha da artırır



Belə ki, 1923-cü ildən “Zaqatala kəndçisi” adı ilə fəaliyyət göstərən indiki “Zaqatala” qəzetinin redaksiyası təxminən 60 il idi ki, Bazar küçəsi 9-da yerləşirdi. Bu il oktyabrın 17-də – Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktının qəbul edilməsinin növbəti ildönümündən bir gün əvvəl “Zaqatala” qəzeti 28 May küçəsindəki köhnə ünvanına, tamamilə yenidən qurulmuş, təmir edilmiş, əməkdaşların zarafatla “ata evi” adlandırdığı ünvana köçürülüb.

Zaqatalanın 95 illik salnaməsini qələmə alaraq tarixin yaddaşına köçürən, indiyədək 8300-ə yaxın nömrəsi işıq üzü görmüş “Zaqatala”nın indiki baş redaktoru mənim tələbə yoldaşım İbrahim İbrahimovdur. Elə onun ömür-gün yoldaşı Elmira Mehdiyeva da qrup yoldaşımızdır. Hərdən görüşəndə tələbə yoldaşlarımız deyirlər ki, İbrahimlə Elmiranı xoşbəxt edən məqamlardan biri də hər gün eyni iş yerinə birlikdə gedib-gəlmələridir. Amma mənim fikrimcə, insan xoşbəxtliyini təkcə bu amil təmin etmir. İnsanı xoşbəxt edən ictimai-siyasi aura da olmalıdır ki, həmin aura bu gün Zaqatalanın hər qarışında, sakinlərin hər addımında hökm sürür. Qərəz, peşə təəssübkeşliyi barədə bu qədər.

Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibətilə oktyabrın 17-də Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən “Ulu diyar Azərbaycan” adlı elmi-praktik konfransda qeyd edildi ki, ölkəmizin dövlət müstəqilliyinin əbədiliyi Heydər Əliyevin rəhbərliyə qayıdışından sonra təmin edilib. Fəxrlə demək olar ki, qazanılan nailiyyətlər baxımından bu gün müstəqil Azərbaycan dünya üçün bir nümunəyə çevrilib. Respublikamız müstəqilliyin verdiyi imkanlardan qısa zaman kəsiyində bacarıqla bəhrələnərək, dünyanın ən dinamik inkişaf tempinə malik ölkələri sırasına çıxıb.

Qətiyyətlə deyə bilərik ki, ölkənin hər yerini əhatə edən dinamik inkişaf tempinin, xüsusilə, regionların sosial-iqtisadi inkişafı istiqamətində nəzərdə tutulan proqramların reallaşması nəticəsində Zaqatala rayonu da öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə söhbətimizdə bu məzmunlu o qədər faktlar yada düşdü ki, əksəriyyətini heç qeyd edə bilmədim.

Mübariz müəllim dedi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ixracyönümlü istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması və inkişaf etdirilməsi istiqamətində verdiyi tapşırıqlara uyğun olaraq, Zaqatala rayonunda məqsədyönlü tədbirlər davam etdirilir.

Tütünçülüyü inkişaf etdirmək məqsədi ilə fermerlər arasında bu sahənin ixrac potensiallı olması barədə geniş maarifləndirmə tədbirləri aparılıb. Cari ildə 750,3 hektar sahəyə tütün əkilib və 2265 nəfər mövsümi işə cəlb edilib. Payızın üçüncü ayı olmasına baxmayaraq, tütün sahələrində məhsul yığımı işləri davam etdirilir. İndiyədək 410 tona yaxın quru tütün istehsal edilib.

Dövlət başçımız qeyd etmişdi ki, fındıq bizim ölkə üçün ən çox valyuta gətirən kənd təsərrüfatı məhsullarındandır. Ona görə də rayonda fındıq bağlarının əkin sahəsinin iki dəfə artırılması ilə əlaqədar müvafiq tədbirlər davam etdirilib. Bu ilin yaz mövsümündə 352 hektar sahədə yeni fındıq bağları salınaraq mövcud bağlar 18 min 503 hektara çatdırılıb.

Elə baramaçılıq da ixracyönümlü sahələrdəndir. Bu il zaqatalalılar proqnozlaşdırılmış 40 ton barama istehsalına qarşı 48,1 ton məhsul tədarük edərək “Şəki-İpək ASC”-yə təhvil verib, 233 nəfər barama istehsalçısına dövlət büdcəsinin vəsaiti hesabına 234 min 735 manat subsidiya ödənilib.

Ötən yazılarımızda da qeyd etdiyimiz kimi, Zaqatala üçün ənənəvi və ixrac potensiallı sahələrdən biri də gülçülükdür. Mübariz müəllim xatırlatdı ki, bu sahənin inkişaf etdirilməsi üçün 2016-cı ildən rayonun Aşağı Tala kəndi ərazisində “AZROSE” MMC tərəfindən gül plantasiyasının salınmasına başlanılıb və artıq cari ildə müəssisənin bar verən 64 hektar qızılgül və 35 hektar lavanda plantasiyasından tədarük edilmiş gül ləçəklərindən 38 kiloqram qızılgül yağı və 262 kiloqram lavanda yağı istehsal edilib.

Həmsöhbətim xatırlatdı ki, arıçılığın inkişaf etdirilməsi, bal ixracının artırılması məqsədi ilə rayonda “EkoZaqatala” MMC tərəfindən “Boz Qafqaz” cinsinə mənsub arılar yetişdirilərək artırılır və fermerlər yüksək məhsuldar, cavan arı ailələri ilə təmin edilirlər. Rayonda 400-dək arıçılıq təsərrüfatında 21 min əsasən “Boz Qafqaz” və “Karpat” cinsinə mənsub arı ailəsinə xidmət olunur. Bu təsərrüfatlarda il ərzində təxminən 200 ton bal, 3 ton mum, 300 kiloqram çiçək tozu, 100 kiloqram vərəmum, 5-6 kiloqram arı südü, və s. məhsullar istehsal olunur. Rayonun təbii iqlim şəraiti gələcəkdə arıçılıq məhsullarının istehsalının artırılmasına imkan verir.

Arıçılıq barədə danışarkən, bir məsələni xüsusilə qeyd etməliyik. Belə ki, bu sahənin daha da inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” 2018-ci il 5 mart tarixli sərəncamının icrası olaraq, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə 10 (on) manat məbləğində subsidiya verilməsi nəzərdə tutulur.

Dövlət başçımızın “mən kənd təsərrüfatı ilə bağlı yekun olaraq demək istəyirəm ki, ilk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik” – çağırışına Zaqatalada böyük məsuliyyət və qətiyyətlə əməl edilir. Bildirilir ki, 2018-ci ilin geridə qalan aylarında rayonda sənayedə 52,2 milyon manat, kənd təsərrüfatında 107,7 milyon manat, tikintidə 18,4 milyon manat, ticarətdə 59,6 milyon manat, rabitədə 1,7 milyon manat, nəqliyyatda 3,6 milyon manat olmaqla cəmi 243 milyon 271 min manat məhsul istehsal edilib və xidmətlər göstərilib.

Bəzi məsələlər barədə az danışmaq istəyən rayon rəhbəri sadəcə faktları sadalamaqla kifayətləndi. Məsələn, dedi ki, bu il rayonda 35 min 978 ton taxıl, o cümlədən 25 min 17 ton buğda, 22 min 255 ton qarğıdalı, 423 ton günəbaxan, 18 min 765 ton kartof, 21 min 225 ton tərəvəz, 9040 ton bostan məhsulu, 410 tona yaxın quru tütün, 24 min 74 ton meyvə, 200 ton üzüm, 38 ton yaşıl çay yarpağı istehsal olunub.

Rayonda sahibkarlığın davamlı inkişaf etdirilməsi və bu sahədə qarşıya çıxan problemlərin həlli istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan kənd təsərrüfatı sahələrinin kiçik həcmli investisiya layihələrinin maliyyələşdirilməsi məqsədi ilə 19 layihə üzrə 242 min manat həcmində güzəştli kredit verilib. İqtisadiyyata qoyulmuş 3 milyon 437 min manat investisiyanın 78,3 faizi xidmət sahələrinin inkişafına, 17,5 faizi yaşayış evlərinin tikintisinə, 4,2 faizi ticarət sahəsinin inkişafına cəlb edilib.

Mübariz Əhmədzadə daha bir mühüm məsələyə toxunaraq dedi ki, cənab Prezidentin rayon rəhbərlərindən tələb etdiyi əsas məsələlərdən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Zaqatalada bu məsələ də öz müsbət nəticəsini tapır. Məsələn, rayonda 1316 nəfər işaxtaran kimi qeydiyyata alınmış, 511 nəfər münasib işlə təmin olunub, “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin sərəncamının icrası olaraq 320 nəfər “Öz biznesinə başla və təkmilləşdir” mövzusunda xüsusi təlimlərdə iştirak edib, imtahandan keçmiş 100 nəfərə öz biznesinə başlamaq üçün mal-material verilməsi nəzərdə tutulub.













Rayon ərazisində bütün maliyyə mənbələri hesabına 18 milyon 362 min manat həcmində tikinti, abadlıq və quruculuq işləri görülüb. Şəhərin Azərbaycan prospektində, Zərifə Əliyeva, 28 May, Nizami, E.Ağayev, H.Z.Tağıyev və Ü.Hacıbəyli küçələrində, Heydər Parkında təmir işləri aparılıb. Qala düzü pilləkənlərində yararsız vəziyyətə düşmüş mərmər və travertin üzlük materialı sökülərək yanmış qranit üzlüyü ilə əvəzlənib. 1 saylı tam orta məktəbin qarşısında yeni istinad divarı tikilib, kərpic və üzlük çay daşı ilə üzlənib.

Eləcə də, Tala çayı üzərindəki körpüdə işıqlandırma sistemi təmir olunaraq 10 ədəd yeni metal işıq dirəyi, Heydər Əliyev prospektində 2 saylı tam orta məktəbin qarşısında məktəblilərin təhlükəsizliyinin təmin olunması üçün 50 metr uzunluğunda, Ü.Hacıbəyov küçəsində yerləşən səkilərin kənarına metal məhəccərlər quraşdırılıb.

Rayonun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlər hesabına Qorağan –Qax --Zaqatala avtomobil yolunun Qax --Zaqatala hissəsinin yenidən qurulması işləri başa çatdırılıb. Əliabad-Muğanlı – Faldarlı –Qandax –Yengiyan --Əliabad avtomobil yolunun və Yevlax –Zaqatala --Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun Zaqatala --Balakən --Mazımçay hissəsinin əsaslı təmir və yenidən qurulması işləri davam etdirilib, Zaqatala --Dəmir yolu stansiyası --Üçüncü Tala –Dağlı --Muğanlı avtomobil yolunun yenidən qurulması işlərinə başlanılıb.

Rayon Məhkəməsi üçün yeni inzibati binanın, şəhərin Şəhriyar küçəsində Fövqəladə Hallar Nazirliyinin xətti ilə inşa edilən çoxmənzilli yaşayış binasının tikintisi davam etdirilib, Mosul kənd uşaq bağçasında yenidənqurma və əsaslı təmir işləri aparılaraq inventar və avadanlıqla təchiz edilib.

Xidmət sahələrinin fəaliyyəti barədə də danışan rayon rəhbəri qeyd etdi ki, əhalinin təbii qazla təminatının yaxşılaşdırılması məqsədilə Lahıc, Bəhmətli və Kürdəmir kəndlərinə qaz xətlərinin çəkilişinə başlanılıb,Yuxarı Tala kəndinin “Şimşək” ərazisindəki yeni yaşayış massivində və Meşleş kəndində əhalini fasiləsiz enerji ilə təmin etmək üçün yeni müasir tipli 160 Kva-lıq kompleks transformator məntəqələri quraşdırılıb, əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə Yaponiya səfirliyinin maliyyəsi hesabına Qandax və Kəpənəkçi kəndlərində 2 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilib.

Hər halda, qələmə almalı olduğumuz Zaqatala həqiqətləri kifayət qədər çox idi. Amma neyləmək olar, bir yazıda bütün məsələlərin işıqlandırılması mümkün deyil. Onsuz da Zaqatala barədə başqa bir yazı da qələmə alacağıq. Çünki ələlxüsus, elə bu sətirləri hazırlayanda da fikirləşirdim ki, söhbətə məşhur cərrah Nəriman Əfəndiyevin keçdiyi şanlı əmək yolu ilə başlayım.

Bu da səbəbsiz deyil. Çünki zaqatalalı ağsaqqallardan biri mənə zəng edərək irad tutmuşdu ki, nə üçün hamının ümid çırağı olan Nəriman həkim barədə yazmırsan? Həmin ağsaqqala söz vermişdim ki, noyabrda yazacağam. Amma, yuxarıda qeyd etdiyim kimi, peşə təəssübkeşliyini önə çəkməli oldum. Həm də ki, indiyədək, 30 mindən insanın üzərində cərrahi əməliyyat aparmış Nəriman Əfəndiyev haqqında ayrıca söhbət açmaq lazımdır, elə-belə yox.

Bir də ki, təbiət indi Zaqatalanın meşəsinə, dağına elə bir əlvanlıq, rəngarənglik bəxş edib ki, bu diyar barədə hər gün yazsaq da, azdır. Amma hər gün olmasa da, tezliklə Zaqataladan yeni qeydlərimiz qəzet səhifələrində görünəcək. Təki sağlıq olsun...

*İlqar HƏSƏNOV,*
*“Xalq qəzeti”nin*
*bölgə müxbiri*